# *Kamal CƏFƏROV:* "Ermənistandan çıxarılan 300 minə yaxın Qərbi azərbaycanlının geri qayıdış hüququ beynəlxalq sənədlərdə təsbit edilib"

Dekabrın 5-də Qərbi Azərbaycan İcması tərəfindən "Ermənistandan didərgin salınmış azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə geri qayıdışını təmin etmək: Qlobal kontekst və ədalətli həll" mövzusunda Bakı şəhərində təşkil edilən beynəlxalq konfrans çərçivəsində tədbirə gələn qonaqlarla icma üzvləri arasında ikitərəfli görüşlər keçirilir.

AZƏRTAC xəbər verir ki, Qərbi Azərbaycan İcmasının Gənclər Birliyi sədrinin müavini, Milli Məclisin deputatı Kamal Cəfərovla İordaniya Nazirlər Kabinetinin media müşaviri Mohammed Salah Al Malkavi arasında keçirilən görüşdə qonağa son 200 il ərzində soydaşlarımızın üzləşdiyi müsibətlər barədə məlumat verilib. Kamal Cəfərov bildirib ki, 1987-1991-ci illərdə Ermənistan ərazisindən çıxarılan 300 minə yaxın qərbi azərbaycanlının geri qayıdış hüququ bütün beynəlxalq sənədlərdə təsbit edilib.

Öz növbəsində Mohammed Salah Al Malkavi bu gün keçirilən konfransın sözügedən ədalətsizliyin dünyaya çatdırılmasında böyük əhəmiyyət daşıdığını vurğulayıb.

Azərbaycan.- 2023.- 6 dekabr, № 266.- S.11.